Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Ailə zorakılıqlarına qarşı hüquqi-inzibati müstəvidə mübarizə - daha nə etmək olar...

**Azərbaycanda gender bərabərliyi məsələsi hər zamankı kimi yenə də aktualdır. Bildiyimiz kimi, ölkəmizdə gender bərabərliyinin təmin olunması ilə bağlı qanunvericilik bazası formalaşdırılıb, müəyyən mexanizmlər tətbiq edilir. Əlbəttə, qanunvericiliyin mövcudluğu da, mexanizmlərin ortada olması da ailədaxilində gender bərabərsizliyinin qarşısını ala bilmir.**




Ekspertlər deyirlər ki, mexanizmlər olsa da, amma yenə də bəzi boşluqlar qalmaqdadır və bu boşluqların aradan qaldırılması, hüquqi müstəvidə həll olunması zərurətə çevirilib. Çünki bildiyimiz kimi son zamanlar qadınlara qarşı ailədaxili zorakılıq hallarının sayı bir az da artıb və biz bunu vaxtaşırı müşahidə edirik.

Ailələri gender bərabərsizliyindən doğan zorakılıqdan xilas etmək üçün nə etməli? Ailə zorakılıqlarına qarşı hüquqi-inzibati müstəvidə mübarizə hansı şəkildə qurulmalıdır?

**Ailədaxili zorakılıqlar nədən qaynaqlanır?**

Mütəxəssislərin mətbuatda dərc edilən rəyinə görə, ailələrin 80-85 faizində münaqişələr, qalan 15-20 faizində isə müxtəlif səbəblərdən hərcmərclik baş verir. Hər şeydən əvvəl ailə münaqişələri xüsusi obyektlərlə seçilir, bunların xüsusiyyəti ailə münasibətlərinin unikallığı ilə şərtlənir. Bu münasibətlərin mühüm cəhəti ondan ibarətdir ki, onların əsas mahiyyətini həm şəxsiyyətlərarası, həm də ailənin funksiyasının realizə edilməsi ilə bağlı olan hüquqi və mənəvi öhdəliklər təşkil edir. Ailə münaqişələri öz səbəblərinə görə fərqlənir. Onlardan əhəmiyyətlisi: o ailə üzvlərinin fəallığının, özünüifadə etməsi azadlığının məhdudlaşdırılması, ailənin bir və ya bir neçə üzvünün davranışının qəbul edilmiş normalardan kənara çıxması (alkoqolizm, narkomaniya və b.), çətin həll edilən maddi problemlərin mövcudluğu, ər-arvad münasibətlərinə qohumların avtoritar qarışması və s. Ailə münaqişələrinin xüsusiyyətləri onların dinamikasında, habelə necə keçməsi formasında ifadə olunur. Bütünlükdə ailə münaqişələrinin dinamikası klassik mərhələlərlə xarakterizə edilir; münaqişə situasiyasının yaranması, onun dərk edilməsi, açıq qarşıdurma; münaqişənin həll edilməsi, münaqişənin emosional təəssüratı. Ailə münaqişəsinin xüsusiyyətlərindən biri də ağır sosial nəticə ilə sonuclanma ehtimalının olmasıdır. Bəzən belə münaqişələr faciə ilə yekunlaşır və ailə üzvlərinin müxtəlif xəstəliklərə düçar olmasına səbəb olur. Belə münaqişələrin uşaqlar üçün xüsusi ağır nəticələri olur.

**...Ailədə zorakılıq deyərkən...**

Ekspertlər hesab edir ki, məhz qadınlar əhalinin ən incidilmiş hissəsi hesab edilir. Onlara münasibətdə həyata keçirilən zorakılıq tarixən davam edən kişi və qadın arasında olan qeyri-bərabər münasibətlərdən irəli gəlir. Bütün dünyada aparılan tədqiqatların nəticələri görə, onların 10-69 faizə qədəri ömrünün bu və ya başqa vaxtında kişi tərəfmüqabili tərəfindən fiziki zorakılığa məruz qalıblar. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da kişilərin qadınlar üzərində hakimliyinin sosial modeli üstünlük təşkil edir və müvafiq olaraq burada qadınlar zorakılığa məruz qalır. Müxtəlif vaxtlarda ictimai təşkilatlar tərəfindən aparılan sosioloji tədqiqatlar bunu təsdiqləyir. BMT-nin "Gender inkişafda" layihəsi çərçivəsində 19-60 yaşında qadınlar arasında sorğu aparılıb. Respondent qadınlardan 37 faizi zorakılığın olması faktını qeyd etmişlər. Onlardan 58 faizi ailədə, 32 faizi öz ailələrində (ata evində), 10 faizi ictimai həyatda (işdə, küçədə) baş verib.

Bütünlükdə ailədə zorakılıq deyərkən adətən ər (arvad) və ya partnyor tərəfindən baş verən fiziki təsir nəzərdə tutulur, eyni zamanda bu, böyüklər tərəfindən uşaqlara edilən fiziki təsirlərə də aid edilə bilər. Heç şübhəsiz ki, qeyd etdiklərimiz müxtəlif ekspertlərin məsələyə münasibətidir və eyni zamanda əldə etdiyimiz statistik məlumatlardır. Mütəxəssislər hesab edirlər ki, bu məsələdə hüquq müstəvisində də işlər görülməlidir, ailədaxili zorakılıq törədənlərə qarşı inzibati cəza mexanizmləri tətbiq olunmalıdır. Bir məqamı da vurğulayaq ki, ailədaxili zorakılıq deyəndə yalnız qadın nəzərdə tutulmamalıdır. Ailə daxili şiddətdən əziyyət çəkən kişilər də az deyil. Zaman-zaman biz onların statistikasını müşahidə etmişik. Bütövlükdə, ailədaxili münaqişələrin, zorakılıqların kökünün kəsilməsinə səbən olan xüsusi hüquqi-inzibati mexanizmlər tətbiq edilməlidir. Ailədə zorakılıq varsa, bu özünü cəmiyyətdə də göstərir...

**"Bir-birinə qarşı zorakılıq göstərən insanların sayı çoxalıb"**

Sosioloq-jurnalist Lalə Mehralı bizimlə söhbətində bildirdi ki, bu gün təkcə qadınlara qarşı deyil, bütövlükdə zorakılıq halları artmayıb: "İnsanlar bir-birilərinə qarşı çox aqressivdirlər, təzyiq, şiddət göstərməyə meyillidirlər. Bir-birinə qarşı zorakılıq göstərən insanların sayı çoxalıb. Düzdür, qadınlara qarşı zorakılıq halları problemi həmişə gündəmdə olub və müzakirə edilib. Çünki tarixin bütün dövrlərində qadınlar güclü cinsdən daha çox zorakılıq görüb. Elə bu günlərdə məşhur həkim Xalidə Kəngərlinin intiharı məsələsində də biz bunun şahidi olduq ki, insanın sosial durumu, maddi imkanı, vəzifəsi, güclü olması heç bir əhəmiyyət daşımır. Əgər qadın zorakılıq görürsə, buna mıruz qalırsa mütləq qaydada özünü gücsüz hiss edir. Çünki əks cins tərəfindən təzyiqlə çox yüklənir. Bizim illərdir təbiətimizə, xarakterimizə oturdulan o güclü cinsin nümayəndəsinə qarşı zəif hiss etməyimiz bu məsələlərdə də özünü göstərir. Qarşı tərəfin təzyiqinə zərif cins dözə bilmir. O xanımın intiharı ilə bağlı hələ detallar, xırdalıqlar açıqlanmayıb. O işi, cəmiyyətdə mövqeyi olan bir xanımı belə zorakılığa məruz qoya bilirlərsə demək əslində şiddətin ölçüləri böyükdür"- deyə L.Mehralı qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**